Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: iyun 2024

# Könüllülük xidməti - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Könüllülük xidməti Könüllü Sosial İli (FSJ), Könüllü Ekologiya İli (FÖJ), Federal Könüllülük Xidməti (BFD) və Avropa Könüllülük Xidmətini (EFD və ya Avropa Həmrəylik Korpusu - ESK) əhatə edir. FSJ və FÖJ proqramlarında 27 yaşa çatmayan vətəndaşlar iştirak edə bilərlər, BFD isə yaş məhdudiyyəti qoymur. EVS (və ya ESK) 17-30 yaş arası gənclər üçün nəzərdə tutulur. Sizin iş saatınız tam ştat vahidində çalışan əməkdaşın iş saatına uyğun olmalıdır, lakin Siz yalnız nəzarət altında yardımçı fəaliyyəti ilə məşqul ola bilərsiniz. Qalma müddəti 6 aydan 24 aya qədər ola bilər.

Sənədlərə baxma müddəti orta hesabla 2 həftədən ibarətdir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi və ya xarici vətəndaşlarına verilən etibarlılıq müddəti bitməyən Azərbaycanda yaşamaq haqqında icazə sənədi *(əsli + 1 ədəd surəti)*
- alman dilində online şəkildə tam doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Almaniyada könüllü fəaliyyətin həyata keçirilməsinə dair müqavilə/razılaşma. Qalma yeriniz, iş saatları, işlədiyiniz sahə, alacağınız əmək haqqı göstərilməlidir *(əsli + 1 ədəd surəti)*
- Peşə fəaliyyətinizi əks etdirən tərcümeyi-hal *(1 ədəd surəti)*
- *Əgər varsa*: sizin əvvəlki aldığınız təhsilinizə dair sübutlar, məs.: diplomlar və sertifikatlar *(əsli + 1 ədəd surəti)*
- Gələcək planlarınızı əks etdirən motivasiya məktubu
- Dil biliklərini təsdiq edən sertifikat (*əsli + 1 ədəd surəti*)
- Yaşamaq haqqında Qanunun 18-ci maddəsinin 2-ci Paragrafının 4a bəndinə uyğun olaraq imzalanmış təlimat – dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi
- Viza verilərkən əlavə olaraq təqdim olunmalıdır**:** viza üçün müraciət edərkən təqdim edilmədiyi təqdirdə tibbi sığorta haqqında sənəd (sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı və ölkəyə daxil olacağınız tarixdən könüllü fəaliyyətə başlayacağınız vaxta qədər etibarlı olmalıdır) *(əsli + 1 ədəd surəti)*

“Weltwärts Süd-Nord” komponenti daxil olmaqla Federal Könüllülük Xidmətinə dair qeyd:
Sizin müqaviləniz həm Sizin tərəfinizdən, həm də Federal Ailə və Vətəndaş Cəmiyyəti məsələləri üzrə İdarə habelə fəaliyyət yeri, mərkəzi idarə və könüllü fəaliyyəti həyata keçirən qurum tərəfindən imzalanmış olmalıdır.

Könüllü Sosial İli (FSJ) və Könüllü Ekologiya İlinə (FÖJ) dair qeyd:
Sizin müqaviləniz həm Sizin tərəfinizdən, həm könüllü fəaliyyəti həyata keçirən qurum yaxud fəaliyyət edəcəyiniz yer tərəfindən imzalanmış olmalıdır.

Avropa Könüllülük Xidmətinə (EFS) dair qeyd:
Sizin müqaviləniz "Erasmus + Jugend in Aktion" Milli Agentliyi və əlaqələndirici təşkilat tərəfindən imzalanmalıdır. Tapşırıqları və nəzərdə tutulan təlim nəticələrini təsvir edən müqavilə əlaqələndirici təşkilat və könüllü tərəfindən imzalanmalıdır. Könüllünü dəvət edən təşkilat onun yaşayış və yemək xərclərini qarşılayır. Könüllü həmçinin hazırda 110,00 avro məbləğində əlavə aylıq cib pulu alır.

Əgər müqaviləniz və ya məşğulluğunuza dair digər bir sənəddə yaşayış və yemək xərcləri haqqında heç bir məlumat yoxdursa, Siz yaşayışınız üçün maadi imkanlarınızı təsdiq edən əlavə sənəd təqdim etməlisiniz.

Dil biliklərinə dair qeyd:

Alman dili bilikləriniz olmadığı halda Sizdə fəaliyyət yeri yaxud könüllü fəaliyyəti həyata keçirən qurum adından bu dil biliklərinə ilkin mərhələdə ehtiyac olmadığı və ölkəyə gəldikdən sonra dil kursuna gedə biləcəyinizi təsdiq edən sənəd olmalıdır.

Avropa Könüllülük Xidmətinə (EFS) dair: dil bilikləri EFS-də iştirak etmək üçün tələb olunmur. Könüllü fəaliyyəti həyata keçirən qurum Avropa Ittifaqının Komissiyası tərəfindən təklif olunan onlayn dil öyrənmə aləti (Online Linguistic Support) və - lazım olarsa- ayrıca təklif olunan dil kursları vasitəsilə könüllüyə dil öyrənmə prosesində dəstək verir.

**Ümumi məlumat:**

**Sənədlərin tam şəkildə təqdim olunmasından əmin olun! Natamam sənədlər viza müraciətinin rədd edilməsi ilə nəticələnə bilər.**

Bu məlumat vərəqi daim yenilənir, lakin məlumatın tam olduğunu iddia etmir. Fərdi hallarda əlavə sənədlərin təqdim edilməsi lazım ola bilər.